## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, BMT yanında Beynalxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dəyərli ziyalı Nadir İslam oğlu İsmayılov 1956-cı il fevral ayının 5-də Beyləqan rayonunun Əmirzeyidli kəndində anadan olub.***

| | |
|---|---|
| **1973-cü ildə** | Şahsevən kənd 1 saylı orta məktəbi bitirib. |
| **1974-cü ildə** | BDU-nun Kitabxanaçılıq fakültəsinə daxil olub. |
| **1979-cu ildə** | Universiteti fərqlənmə diplomu ilə bitirib. |
| **1979-cu il** | Sentyabrın 5-dən dekabrın 30-dək M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının (indiki Azərbaycan Milli Kitabxanası) Elmi-metodiki şöbəsində böyük kitabxanaçı vəzifəsində çalışıb. |
| **1979-1982-ci illərdə** | BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının əyani aspirantı olub. |
| **1982-ci ildən** | BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində Biblio-qrafiyaşünaslıq kafedrasının müəllimi kimi fəaliyyətə başlayıb. |
| **1987-ci ildə** | Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan materialları əsasında)" mövzusunda dissertasiya işini Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin rəhbərliyi altında müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alıb. |
| **1992-ci ildə** | Dosent kimi Azərbaycanda təbabətin biblioqrafiyası, biblioqrafiyaşünaslıq, biblioqrafiyaşünaslığın tədrisi meto-dikası, soraq biblioqrafiya xidmətinin təşkili və idarə olun-ması və başqa fənləri tədris edib. |
| **1994-2003-cü illərdə** | Kitabxanaçılıq-informasiya fakültəsində dekan müavini vəzifəsində çalışıb. |
| **2003 - cü ildə** | "Xəzər dənizi və neft" kitabı nəşr edilib. |
| **2003- cü ildə** | "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası" adlı sanballı biblioqrafik əsəri çap olunub. |
| **2004-cü ildə** | "Biblioqrafik tərtibatın metodikası" kitabı nəşr edilib. |
| **2004-cü ildə** | "Kitabxanada ölkəşünaslıq üzrə biblioqrafik fəaliyyətin təşkili" kitabı nəşr olunub. |
| **2007-2012 ci illərdə** | Biblioqrafiyaşünaslıq kafedrasının müdir əvəzi vəzifəsini icra edib. |

| | |
|---|---|
| **2009 – cü ildə** | Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilib. |
| **2012-ci ildə** | Kafedra müdiri vəzifəsinə təyin edilib. |
| | "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. |
| **2013-cü ildə** | "Mirzə Fətəli Axundzadə"elmi biblioqrafik göstəricisinin tərtibçisi, "Azərbaycan Xalq Cümhuriyyəti-100: elmi-biblioqrafiya" (2018) adlı biblioqrafik göstəricinin tərtibçi-müəllifi olub. |
| **2013-cü ildə** | Almaniyanın "Lambert" akademik nəşriyyatında "Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı monoqrafiyasının (rus dilində) çap olunması Nadir müəllimin Azərbaycan biblioqrafiyaşünaslığının inkişafı və dünyaya tanıdılması sahəsində göstərdiyi böyük xidmətlərdəndir. Bununla yanaşı, alimin reytinqli beynəlxalq elmi jurnallarda xarici dildə bir sıra müasir tədqiqat istiqamətlərini əhatə edən elmi məqalələri işıq üzü görüb. |
| **2014-cü ildə** | BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilib. |
| **2015 ci ildə** | Azərbaycan Kitabxana Ensiklopediyasını hazırlayan işçi qrupunun üzvü olmuşdur. |
| **2018-ci il** | "Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası" kitabı nəşr olunub. |
| **2019-cu ildə** | Azərbaycan Respublikasının təhsil nazirliyinin əmri ilə elm və təhsilin inkişafı sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə, bu sahələrin inkişafına xüsusi töhfə verdiklərinə, Universitetin sosial-mədəni inkişafında fəal iştirak etdiklərinə görə universitetin əməkdaşları sırasında biblioqrafiyaşünas alım Nadir İsmayılov da "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif edilib. |
| **2021 - ci il** | Azərbaycanda kitabxanaçılıq-biblioqrafiya sahəsində sənəd axınının təşəkkülü, inkişafı və müasir vəziyyəti adlı monoqrafiya nəşr olunub. |
| **2021-ci ildə** | Milli Kitabxana tərəfindən dəyərli biblioqrafiyaşünas alimin həyat və fəaliyyətinə həsr olunmuş "Biblioqrafiyaşünas alim – Nadir İsmayılov" adlı virtual sərgi hazırlanmşdır. |
| **2022- ci il** | "Rəqəmsal bilik və tədqiqat bacarıqları" adlı dərs vəsaiti nəşr olunub. |

| | |
|---|---|
| **2023-cü ildə** | Bakı Dövlət Universitetinin (BDU) əməkdaşları arasında “Elm Günü”nə həsr olunmuş “İlin alimi” müsabiqəsinin nəticələrinə əsasən "Humanitar və ictimai elmlər" nominasiyası üzrə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının müdiri dosent Nadir İsmayılov I yerə layiq görülmüşdür. |
| **2024-cü ildə** | Bakı Dövlət Universitetinin (BDU) əməkdaşları arasında 27 Mart - Elm Gününə həsr olunmuş “İlin alimi” müsabiqəsinin nəticələrinə əsasən "Humanitar və ictimai elmlər" nominasiyası üzrə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin "Sənəd menecmenti" kafedrasının müdiri dosent Nadir İsmayılov II yerə layiq görülmüşdür. |
| **2025- ci il** | “Sənədşünaslıq” adlı dərs vəsaiti nəşr olunub. |
| **2025- ci il** | “Arxiv işinin əsasları” və “İxtisasa giriş” fənlərini tədris edir. |